**Məhəmməd Cavad Mehri Kermanşahi**

# GECƏ NAMAZININ FƏZILƏTLƏRI VƏ QILINMASI QAYDASI

**Məhəmməd Cavad Mehri Kermanşahı**

# GECƏ NAMAZININ DÜNYA VƏ AXİRƏTDƏ FƏZILƏTLƏR VƏ BƏRƏKƏTİ

***Tərcümə edən:*** ***İxtiyar Kəlbiyev***
***Redaktor:*** ***Musa Abbasov***

بسم الله الرحمن الرحيم

Vəsəlləlləhu əla Muhəmmədin və Alihit-tahirin. Siyyəma Bəqiyyətullahi fil ərəzin. Əccələllahu Təala fərəcəhuş şəruf.

# MUQƏDDİMƏ

Namaz bir müsalman qəlbinin imanı əqli etiqadının əməli nişanəsidir. İnsan Məbudunun qibləsinin səmtinə qiyam edərək, ruku və səcdələrə torpağa baş qoyaraq, tamam vücudu ilə torpağa düşərək deyir:

«Ey Allahım, üzünü Sənə tərəf tutan, Sənin müqabilində torpağa yıxılan mənim ruhum, qəlbim və əqlimdir. Bir əql ki, Sənə etiqadla dolu, bir ruh ki, Sənə aşiqdir, bir qəlb ki, Sənə olan imanla dolu, namazla və özümü Sənin bərabərində torpağa yıxıb Allahlığını etiraf edərək şəhadət verirəm ki, yalnız Sənsən yeganə olan Allah, tayı-bərabəri olmayan, itaət və pərəstişə laiq».

Namaz yaradılışın ən pak təsbihi və tək olan Allaha pərəstişi və itaət nişanəsidir.

Gündəlik yaşayışın səs-küyləri müxtəlif tərəflərdən insanın diqqətini özünə cəlb edərək fikirlərin cəmlənməsində, qəlbin kamil sürətdə hazırlanmasında müşküllük yaradaraq onları cürbəcür istiqamətlərə tərəf çəkir. Amma gecə yarısı, səhər vaxtı, maddi yaşayışın səs-küyü yatan vaxt, ruhun sakitliyi, insanın cisminin aramlığı ona tayı-bərabəri olmayan xas bir şadlıq və ayıqlıq bəxş edir. Bəli hər bir riya, təzahür və özünü göstərməkdən uzaq olan belə bir aram mühitdə insanda qəlbin və ruhun sakitliyi-təkamül halı əmələ gəlir. Həmin dəlilə görə Allah dostları həmişə gecənin axır ibadətlərindən ruhu saflaşdırmaq, qəlbi diriltmək, iradəni qüvvətləndirmək və ixlası kamilləşdirmək üçün güc, qüvvə alardılar. İslamın əvvəllərində Peyğəmbər (s) həmin rühani proqramdan istifadə edərək müsəlmanları tərbiyə etdi və onların şəxsiyyətini o qədər yüksəltdi ki, sanki əvvəlki insanlar deyildilər. İslam mənbələrindən gecə namazının fəzilәti bərasində yetişən ayə və rəvayətlər də bu həqiqəti təsdiq edir.

Gecə namazı insanın Allaha olan eşq və məhəbbətin nişanəsidir. Bu əlaqə insanı yuxudan ayirir və gecə yarısı öz Məhbubu ilə razı-niyaza məşğul edir. Əgər o eşq olmasa, insan şövq ilə təklikdə və

qaranlıqda istirahətdən əl üzüb arifanə xəlvətdə öz Məşuqu ilə danışmağa başlaya nilməz.

Bir hədisi-qüdisdə Allahın buyurduğunu oxuyuruq:

كَذِبَ مَنْ زَعَمَ أَنَّهُ يُحِبُّنِي فَإِذَا جَنَّهُ اللَّيْلُ نَامَ عَنِّي أَلَيْسَ كُلُّ مُحِبٍّ يُحِبُّ خَلْوَةَ حَبِيبِهِ

«Məni sevdiyini iddia edən, amma gecə vaxtı gəlib yetişəndə yatan şəxs öz iddaisında yalançıdır. Hər aşiq öz məşuqu ilə xəlvətdə qalmağı sevirmi?!»[1]

Gecə namazı bir müvəffəqiyyət istəyir ki, onu da gərək Allahdan tələb edəsən. İnsan gecə namazı və gecə ibadətlərini davamiyyətli şəkildə yerinə yetirməklə Allaha yaxınlaşaraq, nəfsi saflaşdıraraq kamil məqamlarından birinə yetişər ki, öz göz, qulaq və əlinə sahib olar. (Haqqdan başqa bir şey görməz, haqqdan başqa bir şey eşitməz və haqqdan başqa bir əməl etməz). O yerə yetişər ki, etdiyi hər bir dua müstəcəb olar.[2]

Buna görə də gecı namazı haqqında olan ayə, rəvayət və hekayətlərdə bir toplu toplayıb maraqlananlara təqdim edirik.

Sora məsum İmamların (ə) gün kimi parıldayan ruhlarından, məxsusən həm qədri, həm də qəbri məxfi (gizli) olan yüksək məqamda Analarından (ə) xətər və büdrəmələrdən amanda qalmağımız üçün kömək istəyərək bu böyük və əzamətli yolda bizə yardımçı olmasını diləyirik.[3]

---

[1] Pərtuye əz əsrarə namz, s. 205
[2] Səvabul əmal, s. 88
[3] Məhəmməd Cavad Mehri Kermanşahı

# BİRİNCİ HİSSƏ

## GECƏ NAMAZININ ƏHƏMIYYƏTI

### Gecə oyaq qalmağın və səhər tezdən yuxudan oyanmağın əhəmiyyəti

Gecənin əhəmiyyəti, İlahi hərəkat və ondakı mənəvi sehr, məbudunun səsini ilə eşidən heç bir dərdli aşiqə gizli deildir. Gecənin qəribə, qeyri-adi rəmz və sirrləri vardır. Hətta qaranlıq və sakir olsada. Amma qəlbi təmiz olanlar üçün məxsusi nuraniyyəti vardır. İlahi bərəkətlərdən çoxlu gecə nazil olmuşdur. Allah Təala Quranı gecə nazil etmiş, Peyğəmbərlərini (s) gecə vaxtı meyraca aparmışdır.

سُبْحَانَ الَّذِي أَسْرَى بِعَبْدِهِ لَيْلاً...

«Münəzzəh olan Allah bəndəsini gecə vaxtı apardı» (İsra 1)

Həzrət Musanın (ə) Allah nəzərində ziyafət və qonaqlığı gecə vaxtı həyata keçmişdir.

وَ وَاعَدْنَا مُوسَى ثَلَاثِينَ لَيْلَةً...

«Musa ilə otuz gecə vədə etdik». (Əraf 142)

Allaha tərəf gedən şəxs yalnız gecə vaxtı kəsb etdiyi nurun vaistəsi ilə Allahın görüşünə gedib yetişə bilər.

Leyl (gecə) kəlməsi və onnan ayrılanlar, o cümlədən: leylən, leylə, leyləha, ləyal, ləyalı və s. Qurani Kərimdə təqribən 90 dəfə gəlmişdir. Bu da Quranın gecə haqqında, onun əhəmiyyəti barəsində danışdığına nişanədir.[1]

İmam Həsən Əskəri (ə) buyurur:

إِنَّ الْوُصُولَ إِلَى اللهِ عَزَّ وَ جَلَّ سَفَرٌ لَا يُدْرِكُ بِإِمْتِطَاءِ اللَّيْلِ

«Allaha yetişmək bir səfərdir ki, yalnız gecənin mərkəbi (miniyi) ilə yol getmək və məqsədə çatmaq olar».[2]

---

[1] Buye eşq dər fərhənqe şəb zendedari, s. 67

[2] Biharul Ənvar Məclisi, c. 78, s. 379

Gündüzün miniyi ilə bu ağır səfəri getmık olmaz. O minik ki, həm güclüdür, həm də qaranlıq və tənhalıqdan yolu daha yaxşı gedir, həmin səhər tezdən yuxudan durmaq və gecə oyaq qalmaqdır. Səhər vaxtı Quran oxumaq, Allahın hüzurunda xüzu, gecə öz əməllərini hesaba çəkmək, keçmişləri əvəz etmək və gələcəkdə görüləsi işləri qərara almaq qaranlıq gecənin qəlbində müyəssərdir.[1]

Səhər kəlməsi lüğət kitablarında gecənin axır vaxtı, sübh və həcr tülu etməmişdən əvvəl olan vaxt mənasında gəlmişdir.[2]

Səhər və sübh saatlarının əhəmiyyəti o həddədir ki, Mütəal Allah and içir.

وَ الصُّبْحِ إِذَآ أَسْفَرَ

«And olsun səhərə, onda ki, işıqlanar» (Müdəssir 34)

وَ الصُّبْحِ إِذَا تَنَفَّسَ

«And olsun işıqlanmaqda olandan yerinə». (Təkvir 18)

Gündüz və gecə saatlarının arasında Allahla əlaqələri bərqərar etmək və feyz götürmək üçün ən gözəl, ən yaxşı vaxt səhər vaxtıdır. Təhəccüd və ibadət vaxtıdır. Gecənin xəlvətində həqiqi Məhbubla üns bağlamaq vaxtıdır. Məsum imamların (ə) həmişə camaatın onda oyaq qalmasına, ibadət etmələrinə rəğbətləndikləri bir vaxtdır. Elə bir vaxtdır ki, bizim böyük alimlərimiz, zəmanənin saleh insanları həmişə o vaxtda oyaq qalardılar və biz bu ibadətləri onların bir çoxlarının həyatında görürük. (ki, müvəffəqiyət əlaməti və səadət nişanıdır.)

مَا طَلَعَ الْفَجْرُ وَ هُوَ نَائِمٌ (Heç vaxt olmadı ki, fəcr tülu edə, o yuxuda ola) Onlar bu nurani anlarda Allah Təala qarşısında bir dünya ixlas, xüsu, Quran oxumaqla və istiğfar etməklə durardılar, müşküllərinin həllini, hacətərinin yerinə yetirilməsini Allahdan istəyərdilər və bütün məqsədlərinə çatardılar.

Allah Təala Quranda iki yerdə səhər çağı istixvar edənləri tərifləyir:

---

[1] Təfsire mövzuiye Qurani Məcid, c. 3, s. 16
[2] Lüğətnameye Dehxuda, c. 28, s. 336

الصَّابِرِينَ وَالصَّادِقِينَ وَالْقَانِتِينَ وَالْمُنْفِقِينَ والْمُسْتَغْفِرِينَ بِالْأَسْحَارِ

«Səbirlilər, düzgünlər, baş əyənlər, infaq edənlər və səhər çağında bağışlanma diləyənlərdir». (Ali İmran 17)

وَ بِالْأَسْحَارِ هُمْ يَسْتَغْفِرُونَ

«Və səhər çağı bağışlanma dilərdilər» (Zariyat 18)

Səhər çağı oyaq qalmağın fəzilət bərəkətləri barəsində bir neçə hədisi nəql edirik:

1. Biharul Ənvarda mərhum Məclisdən rəvayət gəlmişdir.

خَيْرُ وَقْتٍ دَعَوْتُمْ اللهُ فِيهِ الْأَسْحَارُ

«Sizin Allaha dua etdiyiniz ən yaxşı vaxt səhər çağıdır».[1]

رُوِيَ أَنَّ دَاوُدَ (ع) سَأَلَ جَبْرَئِيلَ عَنْ أَفْضَلِ الْأَوْقَاتِ؟ قَالَ: لَا أَعْلَمُ. أَلَا إِنَّ الْعَرْشَ يَهْتَزُّ فِي الْأَسْحَارِ

2. Davud (ə) Cəbrail (ə)-dan ən yaxşı vaxtlar haqqında sual etdi, dedi: «Bilmirəm, ancaq hər gecə səhər vaxtı İlahi ərş hərəkətə gəlir».[2]

3. Yeddinci İmam, hacətlər qapısı İmam Museyi Kazım (ə) səhər çağları belə münacat edərdi:

اَللَّهُمَّ إِنَّكَ قُلْتَ فِي كِتَابِكَ الْمُنْزَلِ "كَانُوا قَلِيلًا مِنْ اللَّيْلِ مَا يَهْجَعُونَ وَ بِالْأَسْحَارِ هُمْ يَسْتَغْفِرُونَ" طَالَ وَ اللهِ هَجُوعِي وَ قُلْ قِيَامِي وَ هَذَا السَّحَرُ وَ أَنَا أَسْتَغْفِرُكَ لِذُنُوبِي إِسْتِغْفَارَ مَنْ لَا يَمْلِكُ لِنَفْسِهِ ضَرًّا وَ لَا حَيوةً وَ لَا نُشُورًا (ثُمَّ يَجِزُّ سَاجِدًا)

İlahi, Sən öz endirdiyin kitabda buyurmusan: (Behişt əhli) Həmişə gecənin az bir HİSSƏsini yatardılar və səhər çağları isiğfar edərdilər. And olsun Allaha, mənim yuxum azdır, səhər vaxtıdır və mən günahlarımdan ötrü istiğfar etməyə qalxmışam. Bir kəsin

[1] Biharul Ənvar Məclisi, c. 87, s. 208
[2] Müstədrəkül Vəsail, c. 2, s. 351

istiğfarı ki, nə özünün xeyr və ziyanına malikdir, nə də ölümü və həyatı öz ixtiyarındadır. (Sonra İmam (ə) səcdəyə gedərdi.)[1]

4. Digər bir rəvayətdə gəlmişdir ki, üç dəstə İblis və onun qoşunun xətərindən amandadırlar:

ثَلَاثَةٌ مَعْصُومُونَ مِنْ إِبْلِيسِ وَ جُنُودِهِ: الذَّاكِرُونَ لِلّهِ وَ الْبَاكُونَ مِنْ خَشْيَةِ اللهِ وَ الْمُسْتَغْفِرُونَ بِالْأَسْحَارِ

1. O kəslər ki, Allah həmişə yadlarındadır.

2. O kəslər ki, Allah qorxusundan ağlayarlar.

3. O kəslər ki, Səhər çağları istiğaf edərlər.[2]

5. İmam Baqir (ə) səhər vaxtının əhəmiyyəti barəsində buyurur:

«Allah Təala dua edən mömin bəndələrini sevir. Sizə vəsiyyət olsun ki, səhər gün çıxana kimi namaz qılın, çünki bu vaxt asimanın qapılarının açıldığı, camaatın ruzisinin bölüşdürdüyü saatdır və camaatın mühüm hacətləri o saatda yerinə yetirilir».[3]

Buna əsasən, kemiş mətləblərlə diqqət etməklə, hədis və rəvayətlərdən səhər və səhər çağı oyaq qalmağın əhəmiyyəti aşiqlərə aydın oldu, ancaq buna baxmayaraq camaatın çoxu gecə yarısı oyaq qalmağın ləzzət və səmərəsindən məhrumdurlar. Məkruh və təmbəllik gətirən vaxtda Fəcrin tülü etdiyi vaxtdan ta gün çıxana kimi yatırlar, Pərvədigərla razi-niyazda faydalana bilmirlər. Əlbəttə, səhər çağı oyaq qalmaq üçün vaxtında yatmaq və istirahət etmək kifayətdir. Ancaq gecənin yarısına kimi oyaq qalan şəxslərə səhər çağı oyanmaq müyəssər olmayacaqdır.

## Təhəccüdün mənası və gecə namazının əhəmiyyəti

Təhəccüd (gecə namazı) ibadətin elə bir formasıdır ki, ayə və rəvayətlərdə çox böyük inayət obyekti kimi təqdim olunmuşdur. Gecə namazı bir namaz mənasındadır ki, saleh insanlar gecə yarısından sonra yuxudan qalxaraq onu qılardılar.

[1] Bihar. c. 87, s. 351
[2] Müstədrək, c. 12, bab 93, s. 351
[3] «Üsuli Kafi» c. 2, «Kitabud Dua» h. 1, s. 478

Gecənin nafiləsi on bir rükətdir. Dörd ədəd iki rükət gecə namazı niyyəti ilə və hər iki rükətdən sonra salam verilir, iki rükət Şəf namazı niyyəti və bir rükət də Vitr namazı niyyəti ilə qılınır.

Gecə namazının[1] səkkiz rükətində müstəhəbdir ki, əvvəlinci iki rükətdə həmddən sonra altımış dəfə İxlas surəsi oxunsun. Namazdan qurtaran kimi onunla Allah arasında heç bir günah qalmaz.

Yaxud onun əvvəlinci rükətində həmddən sonra «İxlas» surəsini, ikinci rükətdə «Qul ya əyyuhəl kafirun» oxunsun, digər altı rükətdə isə həmd və istədiyi hər hansı bir surəni oxuya bilər. Səkkiz rukət olan gecə namazından qurtaran kimi müstəhəbdir ki, şəf namazını yerinə yetirsin, ondan ayrılandan sonra isə bir rukət «Vitr» namazını yerinə yetirsin, həmdən sonra «Qul huvəllahu əhəd»-i üç dəfə, «Fələq» və «Nas» surələrini də oxusun. Sonra əllərini qaldıraraq qunut tutsun, dua oxusun. Qunutda istədiyi duanı oxuya bilər, ancaq yaxşı olar ki, aşağıdakılara riayət edilsin.

1. Qırx mömin barəsində dua etmək və onlar üçün bağışlanmaq diləmək. (Əllahumməğfirli li fulan). Fulan əvəzinə istədiyi şəxsin adını deməlidir.

2. Yetmiş dəfə istiğfar etmək. (Əstəğfirullahə rəbbi və ətubu iləyh)

3. Yeddi dəfə bu duanı demək. (Haza məqamul aizi bikə minənnar) «Bu, oddan Sənə pənah aparmış şəxsin yeridir»

4. Üç yüz dəfə (İlahi Əl-əfv) Hədisdə gəlmişdir: «Nafilə (müstəhəblər) namazlar hədiyyə hökmündədir, hər bir surətdə qəbul olunur»[2]

Müstəhəbi namazları yerinə yetirmək barəsində olan bütün təkid və təşviqlərlə birliktə onları əda etək gərək eşq və həvəs üzündən olsun, insan onları zorla öz boynuna qoyub məcburi şəkildə yerinə yetirməsin. Səy etsin ki, əvvəl ruhunu hazırlasın, əlaqə və qəlb cazibəsi tapsın, sonra onları yerinə yetirsin.

İmam Rza (ə) buyurmuşdur:

---

[1] Məfatihul Cinan, Şeyx Abbas Qumi s. 261

[2] «Qişarul Cüməl» sürəsi, s. 2

«Ürəklərin bəzən qəbul etmək üçün hazırlığı vardır, bəzən də yox. İbadətlərin qəlblərin hazır olan vaxtı yerinə yetirin».[1]

Bu dəlilə əsasən, müstəhəbbi namazlarda və vacib namazlarda bəzi güzəşt və asanlıqlar vardır ki, olmayan bu asanlıqlar daha çox fərqləri cəzb etməkdən ötrüdür, o cümlədən:

1. Müstəhəbb namazı həm ayaq üstə, həm də oturan yerdə qılmaq olar.

2. Müstəhəbb namazda təkcə «Həmd» surısini oxuyaraq rükuya getmək olar.

Bu sadəlik insanları ibadətlərə təşviq etməkdən ötrüdür, hətta əgər bir şəxs müstəhəbbi namazlarını vaxtinda qıla bitirməsə, onların qəzasını yerinə yetirmək istəsə, bu surətdə hadisə uyğun olaraq, Allah Təala mələklərə fəxr edərək buyurar:

«Bəndəmə baxın, ona vacib etmədiyim bir şeyin qəzasını yerinə yetirir. (Başqa bir hədisdə artırılaraq buyurulur.) Sizi şahid tuturam ki, onu bağışladım».[2]

Bir hədisdə gəlmişdir:

«Nafilə namazı vacibi namazlardan olan nöqsan və qüsurları əvəzləndiricisidir».

## Gecə namazı Quranda

Nafilələrin arasında gecə namazının digər müstəhəbbi namazlardan çox olan məxsus yeri vardır ki, Quran ayələrində və hədislərdə onun barəsində çoxlu təkidlər vardır. Bu səbəbə görə də Allah dostları onu ardıcıl olaraq yerinə yetiriblər və ona məhəbbətləri var idi, təhəccüd və gecə yarsının ibadətinə qalxardılar, ta o yerə qədər ki, gecə namazı onun sevimli bəndəsini Həzərət Muhəmməd (s) - ə vacib edildi və belə fərman verildi:

وَ مِنَ اللَّيْلِ فَتَهَجَّدْ بِهِ نَافِلَةً لَكَ

[1] Bihar. c. 87, s. 47
[2] Bihar. c. 87, s. 43

«Gecənin bir qismətini namaz qılmaqla oyaq qal və bu nafilə sənin üçündür».

Qurani Kərimdə bu məsələ on dəfədən çox yad olunmuşdur və müxtəlif ibarətlərlə səhər çağı oyaq qalanlar və gecə yatmayanlar təriflənmişdir.

Həmin ayə aşağıdakilardır.

### *Birinci ayə*

وَ مِنَ اللَّيْلِ فَتَهَجَّدْ بِهِ نَافِلَةٌ لَكَ عَسَى أَنْ يَبْعَثَكَ رَبُّكَ مَقَامًا مَحْمُودًا

«Gecənin bir qismətini namaz qılmaqla oyaq qal və bu nafilə sənin üçündür. Olsun ki, Allahın səni gözəl məqama ucaltsın». (İsra 79)

### *İkinci ayə*

تَتَجَافَى جُنُوبُهُمْ عَنِ الْمَضَاجِعِ يَدْعُونَ رَبَّهُمْ خَوْفًا وَ طَمَعًا وَ مِمَّا رَزَقْنَاهُمْ يُنْفِقُونَ

«Böyürlərini (möminlər) yastıqdan ayırıb (gecə yarısı yatmırlar və namaza məşğul olurlar) xovf ilə rica arasında Tanrını çağırarlar və onlara verdiyimizdən möhtaclara bağışlayarlar». (Səcdə 16)

### *Üçüncü və dördüncü ayə*

كَانُوا قَلِيلًا مِنَ اللَّيْلِ مَا يَهْجَعُونَ * وَ بِالْأَسْحَارِ هُمْ يَسْتَغْفِرُونَ

«(Təqvalı şəxslər dünyada bəndəçilik və ibadətdən geri qalmamaq üçün) Gecənin az bir HİSSƏsini yatardılar və səhərlərdə öz Pərvərdigarlarından bağışlanmaq istəyirdilər». (Zariyat 17 və 18)

### *Beşinci altıncı və yeddinci ayə*

قُمِ اللَّيْلَ إِلَّا قَلِيلًا * نِصْفَهُ أَوِ انْقُصْ مِنْهُ قَلِيلًا * أَوْزِدْ عَلَيْهِ ...

«(Ey Allahın Rəsulu) Gecə (Allaha bəndəçilik və ibadət üçün) az bir HİSSƏ istisna olmaqla ayağa qalx. Gecənin yarısını və ya ondan bir qədər azalt. Və ya ona əlavə et... (Bəs sən ixtiyar sahibisən ki, gecə yarısı durub ibadət edəsən, az HİSSƏsi ilə ondan bir az çox arasında)» (Müzzəmmil 2, 3, 4)

### *Səkkizinci ayə*

إِنَّ رَبَّكَ يَعْلَمُ أَنَّكَ تَقُومُ أَدْنَى مِنْ ثُلُثَيِ اللَّيْلِ وَنِصْفَهُ وَثُلُثَهُ وَطَائِفَةٌ مِّنَ الَّذِينَ مَعَكَ وَاللَّهُ يُقَدِّرُ اللَّيْلَ وَالنَّهَارَ عَلِمَ أَن لَّن تُحْصُوهُ فَتَابَ عَلَيْكُمْ فَاقْرَؤُوا مَا تَيَسَّرَ مِنَ الْقُرْآنِ...

«Həqiqətən sənin Pərvərdigarın bilirki, sən (ibadət üçün) və onlardan (əshab və dostlarından) olan bir toplu ilə gecənin üçdə ikisi və gecənin yarısı və gecənin üçdə birinə yaxınını namaza durursunuz. Və gecənin və gündüzün əndazəsini müəyyənləşdirən Allahdır.Və bilir ki, siz heç vaxt onun hesabını saxlaya bilməzsiniz. Onda sizin tövbənizi qəbul etdi. Və mümkün qədər Qurandan oxuyun». (Müzzəmmil 20)

### *Doqquzuncu ayə*

وَ مِنَ اللَّيْلِ فَاسْجُدْ لَهُ وَ سَبِّحْهُ لَيْلًا طَوِيلًا

«Gecənin bir HİSSƏsini Onun üçün səcdə et və uzun gecəni Onu təsbih et və Onu paklıqla yad et». (Dəhr 26)

### *Onuncu ayə*

أَمَّنْ هُوَ قَانِتٌ آنَاءَ اللَّيْلِ سَاجِداً وَقَائِماً يَحْذَرُ الْآخِرَةَ وَيَرْجُوا رَحْمَةَ رَبِّهِ...

«Bütün gecəni ibadət edən ya səcdə və qiyamda olan və axirətdən qorxan və öz Tanrısının rəhmətinə ümüd bəsləyən, belə olmayan bir kimsə ilə bərabərdirmi?» (Zümər 9)

### *On birinci ayə*

لَيْسُواْ سَوَاءً مِّنْ أَهْلِ الْكِتَابِ أُمَّةٌ قَآئِمَةٌ يَتْلُونَ آيَاتِ اللّهِ آنَاءَ اللَّيْلِ وَهُمْ يَسْجُدُونَ

«Kitab əhlinin hamısı bir deyildir. Onların bir bölümü (Allahın ibadətinə) durmuş və gecə çağı Allahın ayələrini oxuyub səcdə edirlər». (Ali İmran 113)

### *On ikinci ayə*

وَالَّذِينَ يَبِيتُونَ لِرَبِّهِمْ سُجَّداً وَقِيَاماً

«Və onlar ki, gecəni Allahlarına səcdə və ya qiyam halında səhərə çıxardılar». (Furqan 64)

## Gecə namazları hədislərdə

Hədislərdə bu əməl (gecə yarısı oyaq qalmaq və gecə namazı) xeyli təriflənmiş, Əhli beyt (ə) əzəmətli şeyxlər və ələm alimlər ona həvəsli olmuşlar, gecənin axırında oyaq qalmağı ibadət üçün önəmli hesab etmişlər. İmamiyyənin ən əzəmətli kitablarından olan məzhəbin orbiti, alim və fəqihlərin müraciət etdiyi «Vəsailuş Şiə» Kitabında gecə namazının fəziləti barəsində qırx hədis və onun tərk olunmasının kərahəti barəsində xeyli hədis zikr olunmuşdur. [1]

Həmçinin Əllamə Məclisi «Biharul-Ənvarin» on səkkizinci cildində Quran ayələrini nəql edəndən sonra gecə namazının fəziləti barəsində yetmişdən çox rəvayət nəql etmişdir.

O hədislərin birisinə işarə edirik:

---

[1] Çehel hədis. İmam Xomeyni. s. 176, 177

### *Birinci hədis*

Müaviyə İbn Əmmar deyir; «Eşitdim, Həzrəti Saqdiq (ə) buyurdu: Peyğəmbərin (s) Əli (ə)- yə etdiyi vəsiyyətlərdən biri də bu idi ki, buyurdu: «Ya, Əli sənə vəsiyyət edirəm özündə bəzi xislətləri hifz et».

Ondan sonra dedi:

«İlahi, ona inayət buyur».

Sonra buyurdu:

وَ عَلَيْكَ بِصَلَوةِ اللّيْلِ وَ عَلَيْكَ بِصَلَوةِ اللّيْلِ وَ عَلَيْكَ بِصَلَوةِ اللّيْلِ

«Sənə gecə namazını vəsiyyət edirəm. Sənə gecə namazını vəsiyyət edirəm, Sənə gecə namazını vəsiyyət edirəm».

### *İkinci hədis*

Ənəs deyir: «Eşitdim, Allahın Rəsulu buyurur:»

الرِّكْعَتَانِ فِي جَوْفِ اللَّيْلِ أَحَبُّ إِلَيَّ مِنَ الدُّنْيَا وَ مَا فِيهَا

«Gecə vaxtı iki rükət namaz qılmaq mənim üçün dünyadan və ondan olan hər bir şeydən sevimlidir».

### *Üçüncü hədis*

İmam Muhəmməd (ə) Baqir buyurur:

مَنْ كَانَ يُؤْمِنُ بِاللهِ و الْيَوْمِ الْآخِرِ فَلَا يُبِيتَنَّ إِلَّا بِوَتْرٍ

«Allaha, qiyamət gününə iman gətirən şəxs gərək vitri yerinə yetirməmiş gecəni sübhə çatdırmasın».[1]

---

[1] Bihar. c. 87, s. 145

### *Dördüncü hədis*

İmam Sadiq (ə) buyurur:

لَيْسَ مِنْ شِيعَتِنَا مَنْ لَمْ يُصَلِّ صَلَوةَ اللَّيْلِ

«Gecə namazı qılmayan şəxs bizim şiələrimizdən deyil».[1]

### *Beşinci hədis*

Cabir deyir: «Eşitdim, Allahın Rəsulu buyurdu:»

مَا اتَّخَذَ اللهُ إِبْرَاهِيمَ خَلِيلً إِلَّا لِإِطْعَامِ الطَّعَامِ وَ الصَّلَوةِ بِاللَّيْلِ وَ النَّاسِ نِيَامٌ

«Allah-Təala İbrahimi təam yedirtdiyinə və birdə camaat yuxuda ikən gecə vaxtı namaz qıldığına görə özünə dost seçdi».[2]

### *Altıncı hədis*

İmam Həsən Əskəri (ə) buyurur:

لَيْسَ مِنَّا مَنْ أَسْخَفَ بِصَلَوةِ اللَّيْلِ

«Gecə namazını yüngül sayan bizdən deyil».[3]

### *Yeddinci hədis*

İmam Sadiq (ə) buyurur:

عَلَيْكُمْ بِصَلَوةِ اللّيْلِ فَإِنَّهَا سُنَّةُ نَبِيِّكُمْ وَ مَطْرَدَةِ الدَّاءِ عَنْ أَجْسَادِكُمْ

---

[1] Liqaullah s. 30
[2] Çehel hədis. İmam Xomeyni. s. 177
[3] Liqaullah s. 31

«Gecə namazını qoruyun və davamiyyətli edin, çünki bu sizin Peyğəmbərinizin (s) sünnətidir, həm də sizin bədəninizdə xəstəlik və dərdi aradan aparar».[1]

### *Səkkizinci hədis*

İmam Sadiq (ə) buyurur:

مَا مِنْ عَمَلٍ حَسَنٍ يَعْمَلُهُ الْعَبْدُ إِلَّا وَ لَهُ ثَوَابٌ فِي الْقُرْآنِ إِلَّا صَلَوةُ اللَّيْلِ فَإِنَّ اللهَ لَمْ يُبَيِّنْ ثَوَابَهَا خَطَرَهَا عِنْدَهُ...

«Gecə namazından yaxşı başqa elə bir əməl yoxdur, onu yerinə yetirən bəndə üçün Quranda savab müəyyən olunmuşdur. Həqiqətən, Allah əzəmət və şəninə görə öz yanında onun savabını bəyan etmişdir».[2]

### **Doqquzuncu hədis**

İmam Sadiq (ə) buyurur:

إِنِّي لَأَمْقَتُ الرَّجُلُ قَدْ قَرَأَ الْقُرْآنُ ثُمَّ يَسْتَيْقِظُ مِنَ اللَّيْلِ فَلَا يَقُومُ حَتَّى إِذَا كَانَ عِنْدَ الصُّبْحِ قَامَ يُبَادِرُ بِالصَّلَوةِ

«Mən o şəxsdən qəzəbliyəm ki, Quran oxuyur, gecəni oyaq qalır, lakin gecə namazı qılmır, ancaq sübh olan kimi qalxıb sübh namazını qılır».[3]

---

[1] Biharul Ənvar, c. 62, s. 268
[2] Çehel hədis. İmam Xomeyni. s. 178
[3] Biharul Ənvar. c. 83, s. 127

# İKİNCİ HİSSƏ

# GECƏ NAMAZININ FƏZİLƏT VƏ BƏRƏKƏTLƏRİ

## Gecə namazinin fəzilət və bərəkətləri

Gecə namazının bir ceyli fəzilətləri var. Əhli beyt (ə) onu yerinə yetirilməsinə çox təkid etmişlər. Bu namazın fayda və fəzilətlərində bir neçəsini nəzərinizə çatdırırıq.

1. Duanın qəbul olunması

Peyğəmbər (s) buyurur:

إِنَّ فِي اللَّيْلِ لِسَاعَةٍ لَا يَدْعُوا فِيهَا عَبْدٌ مُؤْمِنٌ بِدَعْوَةٍ إِلَّا أُسْتُجِيبَ لَهُ قُلْتَ مَتَى هِيَ؟ قَالَ مَا بَيْنَ نِصْفُ اللَّيْلِ إِلَى الثُّلْثِ الْبَاقِي

«Gecə bir saat vardır ki, mömin bəndə dua etsə, müstəcab olar.»

Həzrətdən soruşdum: «O hansı vaxtır?»

Buyurdu: «Gecə yarısı ilə gecədən üçdə bir qalana kimi arada olan vaxt».[1]

2. Ümumi çağırış

Peyğəmbər (s) buyurur:

إِذَا كَانَ آخَرُ اللَّيْلِ يَقُولُ اللهُ سُبْحَانَهُ: هَلْ مِنْ دَاعٍ فَأُجِيبَهُ؟ هَلْ مِنْ سَائِلٍ فَأَعْطَيْهُ سُؤلَهُ؟

«Gecənin axrı yetişəndə Allah Subhanəhu və Təala buyurur: «Bir dua edən varmı, qəbul edim?! Bir sual edən və bir istəyən varmı ki, istəyini verim?!»[2]

3. Hər nə istəsə ona verərəm

İmam Baqirdən (ə) nəql olunmuşdur:

---

[1] Vəsailuş şiə. c. 7, Kitabus Salat, 26-cı bab, h. 3, s. 70

[2] Biharul Ənvar. c. 87, s. 167

«Allah Təala bir mələyə əmr edir ki, hər cümə axşamı gecənin əvvəlindən axırına kimi ərşin yuxarısından uca Rəbbin tərəfindən nida edir: «Bir mömin bəndə varmı ki, sübh olmamaışdan əvvəl özünün dünya və axirəti üçün Məni çağırsın və Mən də onun duasını qəbul edim?!»[1]

4. Bədənin sağlamlığına bais olar:
Əmirul Muminin Əli (ə) buyurur:

صَلَوةُ اللَّيْلِ مُصَحَّةٌ لِلْبَدَنِ

«Gecə namazı bədənə sağlamlıq bəxş edər».[2]
5. Sürətin gözəlliyinə bais olar.
İmam Sadiq (ə) buyurdu:

صَلَوةُ اللَّيْلِ تُحْسِنُ الْوَجْهَ

«Gecə namazı sifətin nurani və gözəl olmasına bais olar.»[3]
6. Allah nurundan bəhrəmənd olmaq.
İmam Səccaddan (ə) sual olundu:

مَا بَالَ الْمُتَهَجِّدِينَ بِاللَّيْلِ مِنْ أَحْسَنُ النَّاسِ وَجْهًا؟ قَالَ عَلَيْهِ السَّلَامُ: لِأَنَّهُمْ خَلَوْا بِرَبِّهِمْ فَكَسَاهُمْ مِنْ نُورِهِ

«Nə üçün gecə namazı qılanlar camaatın ən gözəl sifətli adamlarıdırlar?»
Buyurdu:
«Çünki onlar öz Pərvərdigarı ilə xəlvətdə görüşürlər, Allahda onlara öz nurundan ehsan edir».[4]
7. Hünü əxlaq ruzinin artması və...
İmam Sadiq (ə) buyurur:

صَلَوةُ اللَّيْلِ تُحْسِنُ الْوَجْهَ وَ تُحْسِنُ الْخُلْقَ وَ تُطِيبُ الرِّيحَ وَ...

---

[1] Əl Müraqibat, s. 167, 168
[2] Məneşe Tələbegi. s. 56, 57
[3] Yenə orada
[4] Təhəccüd və şəb zendedari. s. 8

«Gecə namazı sifəti gözəlləşdirər, əxlaqı yaxşı edər, bədənin iyini pak və xoş edər. Gecə namazı ruzini çox, borcu isə əda edər...»[1]

8. Gündüz üdilən günahları aradan aparar.

İmam Sadiq (ə) aşağıdakı ayə (Həqiqətən yaxşılıqlar pislikıəri aradan aparar) barəsində buyurdu:

صَلَوةُ اللَّيْلِ تُكَفِّرُ مَا كَانَ مِنْ ذُنُوبِ النَّهَارِ

«Gecə namazı insanın gündüz mürtəkib olduğu günahı söndürər».[2]

9. Allahın fəxr etməsinə səbəb olar.

Allahın Rəsulu (s) buyurur.

«Bəndə öz yatagında Pərvərdigarının rızasını cəlbi qəsdi ilə namaz üçün dursa, Allah Təala mələklərə fəxr edər və buyurar:

أَ مَا تَرَوْنَ عَبْدِي هَذَا قَدْ قَامَ مِنْ لَذِيذِ مَضْجَعِهِ إِلَى صَلَوةِ لَمْ أَفْرَضْهَا عَلَيْهِ أَشْهَدُوا إِنِّي قَدْ غَفَرْتُ لَهُ

Bu bəndəmi görmürsünüzmü ki, öz şirin yuxusundan əl götürüb ona vacib etmədiyim namaza meşğuldur. Şahid olsun ki, Mən ona öz məğfirətimi şamil etdim».[3]

10. Onun savabını bir kəs bilmir.

İmam Sadiq (ə) buyurur:

مَا مِنْ عَمَلٍ حَسَنٍ يَعْمَلُهُ الْعَبْدُ إِلَّا وَ لَهُ ثَوَابٌ فِي الْقُرْآنِ إِلَّا صَلَوةَ اللَّيْلِ فَإِنَّ اللهَ لَمْ يُبَيِّنْ ثَوَابَهَا لِعَظِيمِ خَطَرِهَا عِنْدَهُ...

«Bəndəni əncam verdiyi hər bir yaxşı iş üçün Quranda bir mükafat var. Ancaq gecə namazı Allah yanında daha böyük mükafata laiq oldugu üçün onu bəyan etməmişdir».[4]

11. Gecə namazının faydaları.

İmam Sadiq (ə) buyurur:

---

[1] Biharul Ənvar, c. 87, s. 153

[2] Həmin mənbə s. 154

[3] Həmin mənbə s. 167

[4] Bihar. c. 87, s. 140

«Gecə namazının bu faydaları vardır».

مَرْضَاةُ لِلرَّبِّ - Allahin razılığına səbəb olar.

وَ حُبُّ الْمَلاَئِكَةِ - Mələklərin dostluğuna səbəb olar.

وَ سُنَّةُ الْأَنْبِيَاءِ - Peygəmbərin sünnətidir.

وَ نُورُ الْمَعْرِفَةِ - Mərifətə nur və bəsirət verər.

وَ أَصْلُ الْإِيمَانِ - İmanın köküdur.

وَ رَاحَةُ الْأَبْدَانِ - Bədənlərin asayişinə, rahatlığına səbəbdir.

وَ كَرَاهِيَةٌ لِلشَّيْطَانِ - Şeytanin xoşuna gəlməyəndir.

وَ سِلَاحٌ عَلَى الْأَعْدَاءِ - Möminin düşmən qarşısın silahıdır.

وَ إِجَابَةٌ لِلدُّعَاءِ - Duanın müstəcəb olmasına səbəb olar.

وَ قَبُولٌ لِلْأَعْمَالِ - Əməllərin qəbul olunmasına səbəb olar.

وَ بَرَكَةٌ فِي الرِّزْقِ - Ruzidə bərəkətə bais olar.

وَ شَفِيعٌ بَيْنَ صَاحِبِهَا وَ بَيْنَ مَلَكِ الْمَوْتِ - Sahibi ilə ölüm mələyi arasında şəfaətçidir.

وَ سِرَاجٌ فِي قَبْرِهِ - Qəbrin çırağıdır.

وَ فَرْشٌ تَحْتَ جَنْبِهِ - Altının fərşidir.

وَ جَوَابٌ عَلَى مُنْكَرٍ وَ نَكِيرٍ - Nəkir və Münkərə cavabdır.

وَ مُونِسٌ وَ زَائِرٌ فِي قَبْرِهِ إِلَى يَوْمِ الْقِيَامَةِ - Qiyamət gününə kimi qəbrində onun munisi və ziyarətçisidir.

فَإِذَ كَانَ يَوْمُ الْقِيَامَةِ كَانَتْ الصَّلَوةُ ظُلَلُ فَوْقِهِ وَ تَاجًا عَلَى رَأْسِهِ وَ لِبَاسًا عَلَى بَدَنِهِ - Qiyamət günü üstündə bir kölgə, başında bir tac və bədənində libasdır

وَ نُورًا يَسْعَى بَيْنَ يَدَيْهِ - Qiyamət günü önündə hərəkət edən bir nurdur.

وَ سِتْرًا بَيْنَهُ وَ بَيْنَ النَّارِ - Onunla od arasında bir hicabdır.

وَ حُجَّةً بَيْنَهُ وَ بَيْنَ اللهِ تَعَالَى - Onunla Allah Təala arasında bir dəlildir.

وَ ثِقْلًا فِي الْمِيزَانِ - Əməl tərəzisini ağır edər.

وَ جَوَازًا عَلَى الصِّرَاطِ - Sirat körpüsünü keçmək üçün bir sənəddir. (pasport kimi)

وَ مِفْتَاحًا لِلْجَنَّةِ - Behiştin qapısının açarıdır.

12. Arxasında 7 cərgə məlaikə dayanar.

İnsan, istər kişi olsun, istər qadın, hər gün xalis niyyətlə Allah yolunda gecə namazını qılmaq üçün ayağa qalxa, dəstəmaz ala, dürüst niyyətlə, aram qəlblə, ağlar gözlə Allah hüzurunda namaza dura, izzət və cəlal sahibi, aləmlərin Rəbbi o bəndənin arxasina sayi yalniz özünə məlum olan miqdarda yeddi cərgə mələk düzür, bəndə namaza bitirdikdə onların sayı qədər onun üçün savab yazar.

13. Gündüz üzünü nuranıləşməsi.

Allahın Rəsulu buyurur:

«Gecə namazı qılan şəxsin gündüz üzü nurlanar».[1]

14. Allahın xoşnud olmasına səbəb olar.

Əmirul Muminin Əli buyurur:

«Gecə qiyami bədənin səhhədinə, Pərvərdigarın xoşnud olmasına, Onun rəhmətində qərar tutmağa səbəb və Peyğəmbərlərin əxlaqına müvafiq olar».[2]

15. Camaatın ən yaxşısı.

Allaha Rəsulu buyurur:

---

[1] Bihar. c. 87, s. 142 ta 148

[2] Yenə orada

«Sizin ən yaxşılarınız danışanda ədəbli,acları doyuran və gecə camaat yatan zaman namaz qılan kəsdir».[1]

16. Məğmun (aldanmış) olmur.

İmam Sadiq (ə) dostlarından birinə buyurdu:

«Gecə qiyamından əl götürmə. Gecə qiyamından və ibadətindən məhrum olan şəxs məğmundur».[2]

17. Dünya və axirətin zinəti.

İmam Sadiq (ə) buyurur:

«Üç şey möminin iftixarı və onun dünya və axirətdə zinətidir: 1. Gecənin axırında namaz qılmaq və...»

18. Mömininin şərəfi.

Allahın Rəsulu (s) Cəbrailə buyurdu:

«Mənə nəsihət ver».

Cəbrail dedi:

«Ey Muhəmməd, nə qədər istəyirsən ömür sür, nəhayət öləcəksən, hər nəyə istəyirsən ürək bağla, bil ki, axırda ondan ayrılacaqsan, istədiyin hər bir əməli əncam ver, ancaq sonda əməlini görəcəksən və həmçinin bil, möminin şərəfi onun gecə namazıdır və izzəti isə camaatın abrını tökmək özünü qorumasıdır».[3]

19. Ürəyi işıqlandırır.

Allahın Rəsulu (s) buyurur:

«Beş şey ürəyi işıqlandırar: 1. «Qul huvəllah »-ı çox oxumaq. 2. Az yemək. 3. Alimlərlə məclis təşkil etmək. 4. Gecə namazı qılmaq. 5. Namaz üçün məscidlərə getmək».[4]

## Gecə durmağın maneələri

«Müstəhəbbatın arasında ən yaxşı ibadətlərdən olan parlaq mirvari kimi nur saçan gecə namazı möminin şərəfidir. Bu iş səhər çağları oyaq qalıb ibadət edənlərin səadət və hidayət yolu ilə getmələrinə səbəb olar. Din rəhbərləri gecə namazına çoxlu sifariş

---

[1] Yenə orada
[2] Yenə orada
[3] Vəsailuş şiə. c. 5, s. 269, Rahnomaye Behişt, c. 3, s. 77
[4] Rahnomaye Behişt, c. 3, s. 78 be nəqle İsna Əşər

etmişlər. Gəcə namazı dünya və axirət xoşbəxtliyinə, ömrün uzanmasına, malın çoxalmasına, izzət və məhəbbətin artmasına və qəlbin nuranilәşməsinə səbəb olar. onu yerinə yetirəni düşmənlərdən, xəstəliklərdən, hadisələrdən qoruyub behiştə daxil edər. Elə bu səbəbə görə də gecə namazını qılmaq, səhər çağı durmaq elə bir yüksək şərəfdir və o qədər əhəmiyyəti vardır ki, hər insan ondan bəhrələnməyə müvəffəq olmur, yalnız pak və yaxşı insanlar ona müvəffəq olurlar. Çünki şeytan aram oturmur və hər bir kəsin ilahi feyzlərdən hər hansı birinə nail olmasını istəmir».

1. Peygəmbəri Əkrəm (s) bu haqqda buyurur:

وَ مَا مِنْ أَحَدٌ إِلَّا وَ لَهُ مَلَكٌ يُوقِظُهُ مِنْ نَوْمِهِ كُلِّ لَيْلَةٍ مَرَّتَيْنِ يَقُولُ: يَا أَبَا عَبْدِ اللهِ أَقْعِدْ لِتَذْكُرَ رَبَّكَ فَفِي الثَّالِثَةِ إِنْ لَمْ يَنْتَبِهِ يَبُولُ الشَّيْطَانُ فِي أُذُنِهِ

«Hər kəsə bir mələk təyin olunmuşdur və o mələk hər gecə onu iki dəfə yuxudan oyadaraq deyir: «Ey Allahın bəndəsi, qalx və Allahı zikr et». Əgər üçüncü dəfə durmasa, şeytan onun qulıağına bövl (sidik) edər».[1]

2. İmam Mühəmməd Baqir (ə) buyurur:

«Gecə üçün bir şeytan var ki, adı «Rəna» deyərlər. Ona insanı namazından məhrum etmək əmr olunmuşdur. Onun işi bundan ibarətdir ki, bənədə yuxudan oyanıb gecə namazı qılmaq istəsə, o şeytan deyər: «Hələ vaxt qalmışdır, həmin cür ikinci və üçüncü dəfə deyər: «Hələ tezdir, onun vaxtı olmamışdır» sübh olan kimi onun qulağına bir əməl əncam verər və quyruğunu nazla tərpədərək gedər».[2]

Əlbəttə, səhər çağı oyanmaq, gecə namazı qılmağı tovfiq, vaxtında yatmaq və kifayət qədər istirahət etməkdir. Gecə yarısına qədər oyaq qalanlara səhər durmaq müyəssər olmayacaq və ən azı da səhər yuxudan oyanmaqdan məhrum olmaqdır. Gecə namazı bir tovfiq istəyir ki, gərək Allahdan tələb olsun. Bəzən günahlar,

---

[1] İrşadul Qulub. Deyləmi, c. 1, Fi fəzli səlatil ləyli, s. 181

[2] Vəsailuş şiə. c. 5, s. 280

danışdığı yalanlar insanı gecə namazından məhrum edir və ibadətin şirinliyini insanın əlindən alır.

3. İmam Sadiq (ə) buyurub:

«İnsanın yalan danışmağı onun gecə namazından məhrum olmasına səbəb olur. Gecə namazından məhrum olan kimi ruzidəndə məhrum olur».[1]

4. Bir kişi Əmirəl-möminin (ə) yanına gəldi və ərz etdi: «Mən gecə namazından məhrum oldum».

Əli (ə) buyurdu: «Sən bir kəssən ki, günahların səni qandallamışdır».

[1] Biharul Ənvar, c. 87, s. 137, Nurus Səqəleyn c. 3, s. 204

# ÜÇÜNCÜ HİSSƏ

## ALLAH ÖVLİYALARININ GECƏ NAMAZININ BƏRƏSİNDƏ OLAN HEKAYƏTLƏRİNDƏN

### Gecə namazi hekayətlərdə

Islamın böyük Peyğəmbəri (s), Məsum İmamlar (ə) və Allah övliyaları gecə namazına diqqətdə, səhər vaxtı nalə etməkdə nümunə olmuş, həmçinin camaatı da ona rəğbətləndirmişlər. Onların gecə oyaq qalması məsələsinə işarə olunmuşdur. Rəbbani alimlər də Məsumlardan (ə) ibrət götürüb onların ardıcılları olaraq gecə oyaq qalmağı, səhər çağı durmağı qənimət saymış, səhər vaxtlarını dua, namaz və Allah zikri ilə keçirmişlər. Deyirlər ki, Ayətullah Üzma Bürucerdinin (r.ə.) ustadı mərhum Ayətullah «Seyyid Məhəmməd Baqir Dorçei» öz gecə namazının qunutunda «Əbu Həmzə Somali» duasını ayaq üstə oxuyardı və Əllamə Təbatəbai (r.ə) də mübarək Ramazan ayının gecələrini sübhə kimi oyaq qalardı. Bir miqdar mütaliə edəndən sonra qalan vaxtı dua etməklə, Quran oxumaqla, namaz qılmaq və zikr etməklə məşğul olardı. Buna görə gecə namazının əhəmiyyəti səhər çağı oyaq qalmağın təkid olunmasını nəzərə qalaraq nümunələri qeyd edirik.

### Peyğəmbər (s) və gecə namazı

Əta İbn Riyah deyir: «Bir gün Aişənin yanına getdim. Ondan ömründə İslam Peyğəmbərindən (s) gördüyü ən heyrətləndirici iş haqqında soruşdum».

Dedi: «Peyğəmbərin (s) bütün işləri heyrətləndirici idi, ancaq hamısından daha təəccüblüsü bu idi ki, gecələrin birində Peyğəmbər (s) istirahət edirdi, hələ aram olmamışdı ki, yenidən qalxıb dəstəmaz alaraq namaza durdu və namaz halında o qədər göz yaşı tökdü ki,

paltarının qabaq HİSSƏsi göz yaşından islandı. Sonra başını yerə qoydu və o qədər ağladı ki, yer islandı və sübhə qədər belə qaldı».

Bilal Onu sübh namazına çağıranda Peyğəmbəri (s) ağlar gördü. Ərz etdi: «Nə üçün belə ağlayırsınız? Siz ki, Allahın lütfündənsiniz».

Buyurdu:

أَوْ لَمْ أَكُونْ عَبْدًا شَكُورًا ؟!

«Elə isə Allahın şükr edən bəndəsi olmayımmı?»[1]

**Həzrət Əlinin (ə) namazı**

Əmirul-möminin (ə) ilahi ibadətdə o qədər kamalat və yaxınlığa yetişdi ki, Allah onun vücudu ilə fəxr etdi, onun barəsində ayə nazil etdi. Cümlə ayələrdən «Zümər» surəsinin doqquzuncu ayəsi əksər müfəssirlərin nəqlinə uyğun olaraq o böyük şəxsiyyət barəsində nazil olmuşdur.

1. İbn Abbas Əli (ə) barəsində rəvayət etmişdir:

«Həzrət Əli (ə) gecənin birində üçdə bir HİSSƏsi yatardı və axır ikinci üçdə birini ibadət və Quran oxumaqla məşğul olardı. Hər gecə yetmiş rükət namaz və namazlarda Quran ayələri oxuyardı, səhər vaxtı Mütəal Allahın zikri dilinin əzbəri idi».[2]

2. İbn Əbil Hədid (əhli-sünnənin Mötəlizə əqidəsində inam) o həzrətin ibadəti barəsində yazır:

«Abidlər İlahi ibadət və pərəstişi Əlidən (ə) öyrəndilər. Əmirul-muminin (ə) qərqi – ibadət idi, heç vaxt gecə namazını tərk etməzdi. Hətta o gecə ki, (Leylətul hərir) ümumi hücum idi və müharibənin taleyi həll olunurdu, Əli (ə) gecə namazını saxlamadı.

Düşmən oxları sağdan, soldan və üstdən başına yağan zaman gecə namazının xalçasını açdı və belə bir həssas gecədə ibadətindən qalmadı».[3]

---

[1] Təfsiri Nümunə c. 3, s. 213; Sifənətül Bihar c. 1, s. 420; Simaye Zeynəbi Kubra s.68
[2] Təfsiri Minhacus Sadiqin c.9, s. 36
[3] Şərhe İbni Əbil Hədid c.1, s. 27, Simaye Zeynəbi Kubra s.68

## İmam Hüseynin (ə) Aşura gecəsi namazı

Şəhidlər ağası (ə) Aşura gecəsi Əbul Fəzlə (ə) buyurdu:

«Bu qövmə de, bu gecə Aşuradır. Mənə möhlət versinlər, çünki Allah-Təala bilir ki, إِنِّي أُحِبُّ الصَّلَوةَ (Mən Allah rizası üçün namazı sevirəm) Namaz mənim məhbubumdur. Mən namazı sevirəm və istəyirəm ki, dostumla vidalaşam. (Həzrət Abbas (ə) Ömər Sədin qoşununun ona dediyini qardaşı İmam Hüseynin (ə) xidmətinə yetirdi.) İmam Hüseyn buyurdu:

«Get onlara de ki, bu gecəni səhərə kimi möhlət versinlər»

نُصَلِّي لِرَبِّنَا اللَّيْلَةِ وَ نَدْعُوهُ وَ نَسْتَغْفِرُهُ فَهُوَ يَعْلَمُ أَنِّي أُحِبُّ الصَّلَوةَ وَ تِلَاوَةَ كِتَابِهِ وَ كَثْرَةَ الدُّعَاءِ وَ الْإِسْتِغْفَارِ

«Qoy bu gecə Allah dərgahında münacat edək, dua oxuyaq və istiğfar edək. Həqiqətən Allah bilir ki, mən namaz qılmağı, Quran oxumağı, çoxlu dua və istiğfar etməyi sevirəm».[1]

## Camaatın ən abidi Fatiməyi Zəhra (s.ə.)

Həzrəti Fatimə (ə) da atası və əri kimi camaatın ən abidi idi, o qədər aşiqanə və yorulmadan ibadət edirdi ki, yüksək məqamlı atası kimi mübarək ayaqları şişərdi.[2]

مَا كَانَتْ فِي هَذِهِ الْأُمَّةِ أَعْبَدَ مِنْ فَاطِمَةَ كَانَتْ تَقُومُ حَتَّى تَوَرَّمَ قَدَمَاهَا

[1] Məqtəlul Hüseyn s.72-256

[2] Biharul Ənvar Məclisi, c. 43, s. 76, Simaye Zeynəbi Kubra s. 67

**İmam Həsən (ə) buyurur:**

«Bir gecə anamı gördüm ki, fəcr tülu edənə kimi ibadətə məşğul idi».[1]

## Zeynəb (ə) və gecə namazı

İmam Səccad (ə) buyurur:

مَا تَرَكَتْ تَهَجُّدُهَا لِلّٰهِ طُولَ دَهْرِهَا حَتَّى لَيْلَةَ الْحَادِيَ عَشَرَ مِنَ الْمُحَرَّمِ

«Zeynəbi Kubra (ə) ömründə heç vaxt gecə namazını tərk etmədi. Hətta Məhərrəmin on birinci gecəsi (Aşuranın şamı) müsibətinin böyüklüyünə və əzizlərinin matəminə qərq olmasına baxmayaraq gecə namazını qıldı».[2]

İmam (ə) yenə buyurur:

«Zeynəb Şam yolu boyu heç vaxt gecə namazını tərk etmədi və bütün müsibət və giriftarçılıqla birlikdə onu vaxtında yerinə yetirirdi. Bir gecə gördüm ki, bibim oturan halda namaz qılır. Bu mənim üçün görünməmiş bir iş idi. Səbəbini soruşdum, dedi: Üç gündür ki, ac olduğuma görə zəifliyə düçar olmuşam».[3]

## Muhəmməd Təqi Məclisinin duasının müstəcəb olması

Vəhid Bəhbəhaninin nəvəsi Ağa Əhməd «Miratul Əhval» kitabında yazır:

«Bəzi inanılmış şəxslərdən eşitdim ki, Axund Molla Təqi (Əllamə Məhəmməd Baqir Məclisinin atası) nəql etmişdir ki, gecələrin birində namazdan, təhəcüddən və Allah dərgahında ağlayandan sonra özümü bir halətdə gördüm, bildim ki, əgər Allah dərgahında hər nə istəsəm, əlbəttə qəbl olacaq. Fikirləşdim ki,

---

[1] Simaye Zeynəbi kubra s. 69
[2] Zeynəbi binti Əmirul-mominun (ə) s. 20, Simaye Zeynəbi kubra s. 70
[3] Zeynəbi kubra s. 63 Zeynəbi binte İmame (ə) s.17

Allahdan nə istəyim. Birdən Məhəmməd Baqir beşikdən ağlamaq səsi ucaldı, mən dedim: «İlahi Muhəmməd (s) və Ali Muhəmmədə (s) Səni and verirəm, bu tifli dinin bu himayəçi, Seyidul Mürsəlinin əhkamının naşiri et və onu özünün nəhayətsiz lütfünə müvəffəq et»

Sonra Ağa Əhməd deyir: «Yəqindir ki, həmin duanın kəramətindəndir ki, o yüksək məqamlı şəxsdən belə bir xariquladə işlər baş vermişdir».[1]

## Dünya və axirət gecə namazında

Əllamə Təbatəbai deyir: «Elə ki, təhsil almaq üçün Nəcəfül Əşrəfə müşərrəf oldum qohumluq nöqteyi nəzərindən hərdən bir mərhum Qazinin[2] ziyarətinə gedirdim. Bir gün də bir mədrəsənin qapısının yanında durmuşdum. Mərhum Qazi oradan keçirdi. Mənə çatanda əlini çiynimə qoyub dedi:

«Ey oğul, dünya istəyirsən, gecə namazı qıl, axirət istəyirsən,gecə namazı qıl».[3]

## Ağa Nəcəfi Quçaninin (r.ə) gecə namazı

Mərhum Ağa Nəcəfi Quçani (r.ə) İsfahanda keçirdiyi tələbəlik dövrünün macəraları barəsində yazır: «Dostumun qaldığı hücrə ilə mənim otağımın divarlarə bir-birinə yapışmışdı, taxçanın ortasında deşmişdik və oradan bir ip çəkmişdik. İpin ucu dostumun otağında idi, bir ucu da mənim hücrəmdə. Yatan zaman ipin o ucunu dostum əlinə və yaxud ayağına bağlayırdı, bu ucunu da mən bağlayırdım ki, səhər bizdən ən tez yuxudan oyanan digərini səs salmadan ipin vasitəsi ilə yuxudan oyatsın. Məbada bir tələbə bizim səsimizdən oyanıb narazı olmasın».[4]

---

[1] Vəhid Bəhbəhani s. 100
[2] İslam aləmində Ən böyük alimlərdən biri Seyid Əli Qazi Təbatəbai Təbrizi
[3] Mehr taban s.16, bexşe nəxost – Yatha və Yadeqarha s.23 – Dine ma üləmayema s.38
[4] Səyahətə Şərq s.198, 199

## Gecə namazı qılanlar

Mərhum Hacı Mirzə Cavad Məliki Təbrizi (r.ə) deyir: «Ustadım Molla Hüseynqulu Həmədani mənə buyurdu:

«Fəqət gecə oyaq qalanlar bir məqama nail olurlar, onlardan qeyriləri heç yerə çatmayacaqlar».[1]

## İmam Xomeynin (r.ə) gecə namazı

İmamın oğlundan (Mərhum Seyyid Əhməd Ağa) nəql olunmuşdur:

«Parisdən İrana qayıtdığımız gecə İmam təyyarədə gecə namazı üçün qalxdı və elə ağladı ki, xidmətçi təəcüb etdi və eşitdim ki, soruşdu: «İmam bir şey narahtdırmı?»

Mən dedim ki, İmam hər gecə belədir».[2]

## Gecə namazı üçün oyatmaq

Mərhum Şeyx Cəfər Kaşiful Ğitanın oğlu Şeyx Həsən deyir: «Şeyx Cəfərin adədi idi ki, hər gecə sübhə yaxın oyanardı, gəlib qapının yanında dayanardı və əyalını, tifillərin hamsını yuxudan oyadardı və deyərdi: «Qalxın, gecə namazı qılın».

Mən o vaxt uşaq idim, yuxu mənə qələbə edirdi. Şeyx mənim otağımın yanına gəlib çağıranda ki, «Qalx» mən uzandığım halda deyərdi: «Vəllazallin» ya «Əllahü Əkbər» yəni mən namaza məşğulam».[3]

## Çölün ortasında suyun cari olması

Yəzdi İmam cüməsi Şəhid Mehrab Mərhum Ayətulla Səduqi deyir: «Biz İmamla səfərlər etmişik. Məşhəd səfərində olanda bizə

---

[1] Əsrarus Salat s.293
[2] Simaye Fərzaneqan s.230
[3] Qisasul Ülema s. 185

ata kimi bir əxlaq bağışladı. Müqəddəs yerdən qayıdanda yolun ortasında ruslar yoxlanış aparmaq üçün maşının qabağını kəsdilər. (O zaman İranın bəzi yerləri Sovetlərin, Amerikanın və İngiltərənin nəzarəti altında idi) Hamımız maşından düşdük. İmam həmişə gecə namazı qıldığına və əməli heç vaxt tərk etmədiyinə görə maşından düşəndən sonra istədi gecə namazını qılsın, ancaq çölün ortası olduğuna görə su yox idi. Bir də baxdıq ki, bir yerdən su axır, o da qollarını çırmaladı və dəstəmaz aldı. Amma biz anlaya bilmədik ki, İmam namazı qurtana kimi su var idi, yoxsa yox. Hər halda biz o səfərdə ondan belə bir kəramət gördük».[1]

### Ayatullah Şəhid Quddisinin (r.ə.) qayğıkeş olması

Onun barəsində nəql olunmuşdur ki, gecə namazını ruhani üçün lazım bilirdi. Bir gecə «Qouhərşad» məclisində məxsusi bir nigarançılıqla buyurur:

«Mənim üçün çox dözülməz və gözlənilməzdir ki, eşitdim mədrəsənin ustadlarından biri gecə namazının qayğısına qalır. Onunla söhbət etdim, məlum oldu ki, gecə mədənin yüngüllüyünə riaət etmir».

Başqa bir dəfə buyurur:

«Biz Nəvahənddə olduğumuz vaxt bir il tez-tez ailəliklə dostların birinin evinə dəvət olunurduq. Mən neçə nöbədən sonra gördüm ki o qonaqlıqda yemək yediyimiz gecənin səhərisi sübh namazı axır vaxta çəkilir. (Gecə namazına müvəffəq olmuruq.) fikir verdim ki, o şəxsin mallarında bir işkal vardır».[2]

### Şəhid Mütəhhərinin gecə namazları

Ayətullahul Üzma Xamnei buyurur:

[1] Fərazhaye əz əbadə ruhi, Əxlaqi və ürfaniyə İmam Xomeyni s.57
[2] Yadnameye Şəhid Ayətullah Quddusi s. 76 və 77

«O (Şəhid Mütəhhəri) Məşhədə gələn zaman bəzi vaxtlar bizim otağımıza gələrdi və onun gecələr yatdığı otaqla mənim yatdığım otağın arasında bir qapı fasilə vardı.

O həmişə yatan vaxt Quran oxuyardı. Onun təhəccüd və gecə namazi qıldığı vaxt ağlamaq səsini eşidirdim.

Əlbəttə, çoxlu gecə namazı qılanımız vardır. Ancaq gecə yarısı şövqlə bir gecə namazı qılaraq göz yaşı tökən, ağlayan çox azdır.

Sonralar onun qədim dostlarından Ağayi Müntəziri və digərlərindən eşitdim ki, O hələ tələbəlik illərindən gecə namazını qılmış və təhəccüd əhli olmuşdur».[1]

## Qapı və divarın həm səda olması

Ağa Nəcəfi Quçaninin (r.ə) ustadı Axund Molla Məhəmməd Kaşinin (r.ə) barəsində danışırlar ki, hər gecə yarısı elə yanığlı namaz qılardı və bədəni titrəyərdi ki, hücrənin çölündə sümüklərinin hərəkət səsi hiss olunardı.

Bir gün dərs qurtarandan sonra tələbələrdən biri o böyük şəxsiyyətin yanına gəlib dedi:

«Ağa, bu Ağa Şeyx deyir ki, keçən sübh vaxtı gördüm ki, qapı və divardan (Subbuhun, quddusun. Rəbbuna və rəbbul məlaikəti vər ruh) səsi gəlir. Baxanda gördüm ki, Ağayi Axund səcdədə bu zikr deyir».

Axund buyurdu:

«Qapı və divarın mənim zikrimi zikr etmələri mühüm bir iş deyil. Mühüm odur ki, o bu sirrə necə məhrəm olmuşdur».

## Əllamə Əmininin (r.ə) namaz

Əllamə Əmini (r.ə) üç gecə müddətində İmam Rzanın (ə) hər gecə rükət namaz qılırdı.

Ona dedilər: «Siz yorulmusunuz?»

---

[1] Simaye Fərzaneqan s.230

Buyurdu: «Çəgər balıq üzməkdən yorulur ki, mən namazdan yorulum?»[1]

## Yataqda yatmayan bir alim

Seyyid Mühəmməd Baqir (r.ə) (Mir Damat ləqəbi ilə məşhur) qırx il yataqda istirahət edib yatmadı və bərəkətlə dolu ömründə bir nafiləni də əldən vermədi. 1041-ci ildə Nəcəfül Əşrəfdə dünyadan getdi və Mövlayi Müttəqiyanın (Əli (ə)) yaxınlığında dəfn olundu.[2]

## Gecə namazından

İmamın yaxınlarından biri deyir: «Əlli ildir ki, İmam Xomeyni (r.ə) gecə namazını tərk etmir, İmam xəstə olanda, sağlam olanda, zindanda, azadlıqda, hətta ürək xəstaxanasının taxtı üzərində də gecə namazı qıldı.

İmam (r.ə) Qumda xəstələndi, həkimlərin göstərinə əsasən lazım idi ki, Tehrana aparılsın. İmam (r.ə) neçə saat təcili yardım maşınında idi və ürək xəstaxanasına çatdırılandan sonra gecə namazını qıldı.[3]

## Ağa oyan

Hacı Mirzə Cavad Ağayi Məliki Təbrizi (r.ə) buyurur:

«And olsun Allaha, mən bəzi gecə oyaq qalanlardan, namaz qılanladan tanıyıram ki, yatan halda yuxudan qalxmaq üçün, gecə namazını yerinə yetirmək üçün gecə yarısı, səhər vaxtı bir mələk onlara «Ağa» ləfsi ilə yuxudan oyadır və onlar o mələk tərəfindən «Ağa» ləfsinə eşitməklə namaz, zikr, dua və münacat yerinə yetirmək üçün yataqlarından qalxırlar».[4]

---

[1] Həbib və məhbub s.48
[2] Dinema Ülemaye ma s.130
[3] Fərazhaye əz əbadə ruhi, Əxlaqi və ürfaniyə İmam Xomeyni s.20
[4] Əsrarus Salat s.457

## O gecənin axırında yatıb yuxuda qalmazdı

Mühəddis Qumi (r.ə) bütün il boyu ən azı bir saat fəcr tulu etməmiş oyanıb namaz və təhəccüdə məşğul olardı. Gecənin axırının ibadətinə, dan ağarmamış əvvələ çoxlu əhəmiyyət verirdi və etiqadı vardır ki, müstəhəbbi əməllərin ən yaxşısı ibadət və təhəccüddür.

Böyük oğlu deyir: «O yerə ki, xatirimdə var, gecənin axırını oyanmaq Ondan fotə gəlmədi. Hətta dəfərdə də bu əməli yerinə yetirdi».[1]

## Ayatullahul Üzma Mərəşi Nəcəfi (r.ə)

Ayatullahul Üzma Mərəşi Nəcəfi (r.ə) barəsində söyləyirlər ki, oğluna vəsiyyət etdi: «Üstündə yetmiş il gecə namazı qıldığım xalça və İmam Hüseynin (ə) türbətindən düzəldilən və səhər dənələrin sayı qədər istiğfar elədiyim təsbih mənimlə dəfn olunsun».[2]

## Şeyx Abbas Qumi (r.ə)

Mərhum Hacı Şeyx Abbas Quminin (r.ə) oğlu Höccətul İslam Mühəddiszadə deyir:

«Atam bir cümə axşamı gecə namazından sonra «Yasin» surəsini oxuma başladı «Budur sizə vədə verilmiş cəhənnəm» ayəsinə catanda neçə dəfə təkrar edərək dəfələrlə deyirdi:

أَعُوذُ بِاللهِ مِنَ النَّارِ

«Cəhənnəm atəçindən Allaha pənah aparıram».

Bu cür qalırdı və surənin ardını oxuya bilmirdi, sübh azana kimi həmin halda qalardı. Sübh azanı yetişəndə sübh namazına məşqul olardı».[3]

---

[1] Simaye Fərzaneqan c. 3, s.223
[2] Fərazhaye əz vəsiyatnameye İlahi əxlaqi Ayatullah Üzma Mərəşi Nəcəfi (r.ə) s.19
[3] Namaz raze dust s. 291

## İmam Xomeynin (r.ə) ağlaması və naləsi

Tehran alimlərindən biri 41 il bundan əvvəl nəql edir:

«Bir gecə Mərhum Hacı Mustafa Xumeynin (r.ə.) qonağı idi. Gecənin çox HİSSƏsini Hacı Ağa Mustafa ilə oturub söhbət və elmi bəhs etdik. Təzə yatmışdım ki, ağlamaq və nalə səsindən diksinərək oyandım. Hacı Ağa Mustafanı oyatdım və dedim: «Deyəsən qonşuluğumuzda kimsə ölmüşdür, onun üçün ağlayırlar».

Hacı Ağa Mustafa qulaq asıb dedi:

«Hacı Ağamın (İmam Xumeylinin (r.ə.)) ağlamaq səsidir, gecə namazına məşğuldur və Allah dərgahında ağlayaraq nalə edir».[1]

## Şəhid Mütəhhərinin oğlundan bir söz

«Terror xəbərini eşitdiyimiz gecə hamılıqla sübhı kimi oyaq idik. Gecə yarısından sonra idi ki, adətə uyğun olaraq onu gecə namazına oyadan saatın zəngi çaldı, ancaq o daha həyatda yox idi. O gecə namazını al qanına qəltan olmuş halda gecə namazının təyin olunmuş vaxtından əvvəl küçənin qaranlığında qalmışdı.»

## Şəhid Mütəhhərinin təklif illərində ibadətə həvəsi

Ayatullah Şəhid Mütəhhərinin (r.ə) həyatının şərhində deyilir: «O həmişə dəstəmazlı idi və bu işə tövsiyə edərdi. Uşaqlarının vacibatları yerinə yetirmələrinə diqqət və nəzarət edərdi. Məğrib və İşa namazından sonra uzun səcdələr yerinə yetirərdi və təklif illərindən sonra heç vaxt gecə namazını tərk etmədi».[2]

## Qalx və gecə namazı yerinə yetir

Şəhidi Salis (r.ə.) (Üçüncü Şəhid) deyir: «Kaşiful Ğita (r.ə.) Qəzvinə gələndə qardaşının (Molla Məhəmməd Saleh) mənzilində

---

[1] Namaz raze dust s. 208
[2] Tahareti ruh. s. 384 ta 386

qaldı, o yer böyük bir bostan idi. Qonaqlar hərəsi bir yerdə yatdılar, mən də bağın bir küncündə istirahət etdim. Gecədən bir xeyli keçmişdi, Şeyx məni səslədi: «Qalx, gecə namazını yerinə yetir».

Ərz etdim: «Qalxıram».

Şeyx məndən keçdi və gözüm yenə yumuldu. Nagah hiss etdim ki, əhvalım dəyişdi, sanki bir ürək ağrısı mənə ariz oldu. Ağrının şiddətindən qalxdım. Anladım ki, bu hal dəyişikliyi eşitdiyim səsə görədir. O səs və avazın ardınca getdim, səs gələn yerə yaxınlaşanda gördüm ki, Şeyx Cəfər Kaşiful Ğita (r.ə.) sonsuz bir xüzu və xüşu ilə Allah Təala ilə münacata məşğuldur. Onun pak naləsi mənim qəlbimdə elə təsir qoydu ki, 25 ildir o nalənin ardından gecə yarısı durub Allahla münacata otururam».[1]

## Şeyx Abbas Quminin (r.ə) ağlaması

Höccətül İslam Əli Mühəddiszadə atası Hacı Şeyx Abbas Qumi (r.ə) barəsində deyir:

«Bir gün sübh vaxtı gördüm ki, atam qalxıb ağlamağa başladı. Ondan soruşdum: «Nə üçün göz yaşı tökürsünüz?»

Buyurdu: «Ona görə ki, keçən gecə gecə namazını qilmamışam».

Dedim: «Atacan gecə namazı müstəhəbdir, vacib deyil. Siz ki, vacibi tərk etməmisiniz və bir haram olan işi əncam verməmisiniz, nə üçün bu cür ağlayırsınız?»

Buyurdu: «Ağlamağımın səbəbi budur ki, mən nə etmişəm ki, gecə namazı qılmaq səadətindən məhrum olmuşam».[2]

## Ağlamaq taqətini kəsdi

Mərhum Şeyx Abbas Qumi (r.ə) Ağa Seyyid Sədrəddin Amuli İsfəhaninin (r.ə) halının şərhində yazır:

[1] Namaz raze dust s. 218
[2] Namaz raze dust s. 291

«Nəql olunmuşdur ki, Ramazan ayının gecələrinin birində O, Əmirul-möminin (ə) hərəminə getdi, ziyarətdən sonra zirehin baş tərəfində oturub «Əbu Həmzə Somali» duasını oxumağa başladı».

( إِلَهِي لَا تُؤَدِّبْنِي بِعُقُوبَتِكَ ) cümləsinə yetişəndə ağlamaq taqətini kəsdi, hey bu cümləni təkrar edərək ağladı və axırda qəşş etdi. Onu hərəmdən çıxartdılar.[1]

## Şeyx Ağa Bozorg Tehraninin (r.ə) namazı

Əllamə Şeyx Ağa Bozarg Tehrani (r.ə) hər həftənin çərşənbə gecəsi Nəcəfdən Nəcəfin on kilometrliyində yerləşən «Səhlə» məscidinə gedərdi, orada namaz və ibadət edərdi. Onun bu işi səksən yaşına çatana kimi və sonra da həmişə davam etdi.[2]

## Molla Məhəmməd Təqi Bürğani Qəzvininin (Şəhidi Mehrab) namazı

Mərhum Molla Məhəmməd Təqi Bürğani o ruhanilərdən idi ki, səhər vaxtı mehrabda ikən səcdə halında «Xəmsə Əşər» münacatını oxuyan halda «Babiyyə» firqəsinin əli ilə şəhadətə yetirildi.

Onun barəsində yazırlar: «O cənabın ibadəti belə idi ki, həmişə gecənin yarısından ta sübhi sadiqə kimi öz məscidinə gedib dua, «Xəmsə Əşər» münacatını əzbərdən oxuyardı, bu bəyənilmiş işi heç vaxt tərk etməzdi. Belə gecələrin birində şəhadət şərbətini içənə kimi bu cür davam etdi».

Qış fəslində dəfələrlə gecə yarısı çiynində kürk, başında əmmamə öz məscidinin damının üstündə şiddətlə qar yağdığı surətdə yalvarış və münacatla məşğul olduğunu görmüşdülər. Ayaq üstə əllərini göy səmtinə qaldırardı və bu halı o qədər davam edərdi ki, qar mübarək bədənin başdan ayağa ağarardı.[3]

---

[1] Rahe tuşeye rahiyane nur s. 55

[2] Şeyx ağa Bozorq s.7

[3] Namaz raze dust s. 214

## İmam Xomeynin (r.ə) gecə namazı

İmam hətta Parisdən Tehrana gələrkən təyyarədə də namazını qıldı.

Mənim yadımdadır, kompasını qoydu gördü ki, hərəkət etmir. Məsələni təyyarəçiyə dedik, təyyarəçi cavabında dedi:

«Kompas təyyarədə işləmir» İmam ondan Məkkənin hansı tərəfdə yerləşdiyini soruşdu, nişan verdi. İmam həmin tərəfə namaz qılmağa məşğul oldu.[1]

## İmam Xomeynin (r.ə) ağlaması

İmam Xomeylin (r.ə.) oğlu deyir:

«Ramazan ayının gecələrinin birində damın üstündə yatmışdım. İmamın evi kiçik bir otaqdan ibarət idi və bizim 45 metr qonşuluğumuzda yerləşirdi. Bir səsin gəldiyini eşitdim, qalxdım, Ağanın olduğunu gördüm, qaranlıqda namaz qılır, əllərini göy səmtinə uzadaraq ağlayırdı. Onun Rmazan ayında ibadət proqramı bunda ibarət idi ki, gecə sübhə kimi namaz qılardı, dua oxuyardı, sübh namazından sonra bir miqdar istirahət edib sübh tezdən işlərini görmək üçün hazır olardı».[2]

## Səksən yaşlı qocanın gecə namazı

Bu hadisə İraqdan Küveytə getmık istədiyimiz vaxt baş vermişdir. Bir zaman bizim getməyimizə mane oldular, bizdə qayıtmalı olduq.

O zaman İmam 80 yasında idi. Sübh saat 5 dən Nəcəfül-Əşrəfin xəbər tutmaması üçün 2 tülün (Fəcri kazib və fəcri sadiq) arası Küveytə tərəf hərəkət etdik. Küveyt sərhəddində bizə yol vermədilər. Biz İraq sərhəddinə qayıtdıq. Orada İmamla pis rəftar

---

[1] Nəql əz Höccətül İslam vəl müslimin Seyid Əhməd Xomeyni (r.ə) dər kitabe İmam dər Səngəre namaz, dəftəre 7, s. 71

[2] Rəhe tuşe rahiyane nur, viceye mane mübarək Ramazan s. 55

etdilər, hətta İmamın istirahət etməsi üçün bizə bir otaq belə vermedilər. Nəhayət İmam Əbasını orada uçurmuş bir otağın küncünə atdı və uzandı.

Gecə saat on bir, on iki olardı ki, Bağdaddan dedilər: «Bəsrəyə qayıdın». Biz Bəsrəyə qayıtdıq. Gecə yarısından bir yaxud bir saat yarım keçmiş Bəsrəyə çatdıq. İşi səhmənа salana qədər bir saat keçdi. Nəhayət, saat 2 idi ki, İmam yatdı. Bir az keçmədi, mən gördüm ki, saatın zıngi çaldı və saata baxanda gördüm ki, saat 4-dür. İmam gecə namazı qılmaq üçün qalxdı.

Bir qoca kişi ki, sübh saat 5 dən gecə yarısı 2 yə kimi yatmayıb, yatmaq istəyəndə də yadında olmaq üçün saatı qurur ki, gecə namazı üçün oyansın.[1]

## Kaşiful Ğitanı (r.ə.) oğlunu xəbərdar etməsi

Ayətullah Kaşiful Ğitanın (r.ə.) tərcümeyi-halında yazılır ki, o, gecələrin birində təhəccüd üçün qalxdı. Cavan oğlunu yuxudan oyatdı və buyurdu: «Qalx, mütəhhər hərəmə gedib orada namaz qılırq». Gecənin o vaxtı yuxudan oyanmaq cavan oğlan üçün çətin olduğuna görə dedi:

«Mən hələ hazır deyiləm, siz məni gözləməyin, sonra gələrəm».

Buyurdu: «Xeyr, mən burada dayanmışam, qalx, hazırlaş və birlikdə gedək». Ağazadə məcbur qalaraq yerindən qalxdı, dəstəmaz alandan sonra birlikdə yola düşdülər. Hərəmin yanında fəqir bir kişinin yolçuluq etdiyini gördülər. O yüksık məqamda alim dayandı və oğluna buyurdu: «Bu şəxs gecənin bu vaxtı burada nə üçün oturmuşdur?»

Dedi: «Camaatdan dilənçilik etmək üçün».

Buyurdu: «Yoldan ötən camaat tərəfindən nə miqdarda pul mümkündür ki, ona yetişə?»

Dedi: «Təqribən bit tümən».

---

[1] Nəql əz Höccətül İslam vəl müslimin Seyid Əhməd Xomeyni (r.ə) dər kitabe İmam dər Səngəre namaz, dəftəre 7, s. 82

Buyurdu: «Düz fikirləş, gör, bu adam dünyanın az qiymətli və az məbləğdə ehtimal verilən bir məbləği üçün bu gecə vaxtı yuxu və istirahətindən əl götürüb bura gələrək bir künçdə oturub əlini zəlilanə camaata tərəf uzatmışdır. Sən bu şəxs qədər Allahın gecə oyaq qalanlara verdiyi vədəsinə ehtimad etmirsən».

فَلَا تَعْلَمُ نَفْسٌ مَا أُخْفِيَ لَهُمْ مِنْ قُرَّةِ أَعْيُنٍ...

Deyirlər, o cavan bu sözü o qəlbi diri şəxsdən eşidəndən sonra hərəkətə gəldi və ayıldı, ömrünün axırına kimi gecə oyaq qalmağa səadət və şərəfinfən istifadə etdi və gecə namazını tərk etmədi.[1]

[1] Şəbe mərdane Xuda s. 44-45, Dine ma ülemaye ma s. 14-15

## MÜNDƏRİCAT

**MÜQƏDDIMƏ**
**BIRINCI HİSSƏ**
Gecə namazinin əhəmiyyəti
Gecə oyaq qalmağın və səhər tezdən yuxudan oyanmağın əhəmiyyəti
Təhəccüdün mənası və gecə namazının əhəmiyyəti
Gecə namazı Quranda
Gecə namazları hədislərdə
**İKİNCİ HİSSƏ**
Gecə namazinin fəzilət və bərəkətləri
Gecə namazinin fəzilət və bərəkətləri
Gecə durmağın maneələri
**ÜÇÜNCÜ HİSSƏ**
Allah övliyalarinin gecə namazinin bərəsində olan hekayətlərindən
Gecə namazi hekayətlərdə
Peyğəmbər (s) və gecə namazı
Həzrət Əlinin (ə) namazı
İmam Hüseynin (ə) Aşura gecəsi namazı
Camaatın ən abidi Fatiməyi Zəhra (s.ə.)
İmam Həsən (ə) buyurur:
Zeynəb (ə) və gecə namazı
Muhəmməd Təqi Məclisinin duasının müstəcəb olması
Dünya və axirət gecə namazında
Ağa Nəcəfi Quçaninin (r.ə) gecə namazı
Gecə namazı qılanlar
İmam Xomeynin (r.ə) gecə namazı
Gecə namazı üçün oyatmaq
Çölün ortasında suyun cari olması
Ayatullah Şəhid Quddisinin (r.ə.) qayğıkeş olması
Şəhid Mütəhhərinin gecə namazları

Qapı və divarın həm səda olması
Əllamə Əmininin (r.ə) namaz
Yataqda yatmayan bir alim
Gecə namazından
Ağa oyan
O gecənin axırında yatıb yuxuda qalmazdı
Ayatullahul Üzma Mərəşi Nəcəfi (r.ə)
Şeyx Abbas Qumi (r.ə)
İmam Xomeynin (r.ə) ağlaması və naləsi
Şəhid Mütəhhərinin oğlundan bir söz
Şəhid Mütəhhərinin təklif illərində ibadətə həvəsi
Qalx və gecə namazı yerinə yetir
Şeyx Abbas Quminin (r.ə) ağlaması
Ağlamaq taqətini kəsdi
Şeyx Ağa Bozorg Tehraninin (r.ə) namazı
Molla Məhəmməd Təqi Bürğani Qəzvininin (Şəhidi Mehrab) namazı
İmam Xomeynin (r.ə) gecə namazı
Səksən yaşlı qocanın gecə namazı
Kaşiful Ğitanı (r.ə.) oğlunu xəbərdar etməsi